European Commission

# Aİ-yə üzvlüyə dair müraciətlərlə bağlı Avropa Komissiyasının Rəyləri

noyabr 2022

#StrongerTogether





**17 iyun 2022-ci il** tarixində **Avropa Komissiyası Ukrayna, Gürcüstan və Moldova Respublikasının Avropa İttifaqına (Aİ) üzv olmaq üçün** Şuraya etdiyi **müraciətlərinə dair Rəylərini** təqdim edib. Rəylər **üç əsas qiymətləndirməyə** əsaslanır:

### Siyasi meyarlar

Demokratiyaya, qanunun aliliyinə, insan hüquqlarına və azlıqlara hörmət və müdafiəyə zəmanət verən institutların sabit fəaliyyəti

### İqtisadi meyarlar

Fəaliyyət göstərən bazar iqtisadiyyatı, rəqabət və bazar iqtisadiyyatı şəraitində tab gətirmək qabiliyyəti

### Üzvlük ilə bağlı öhdəlikləri öz üzərinə götürmək qabiliyyəti

Aİ qanunvericiliyinin tətbiqi

Rəylərdə, həmçinin **Dərin və Hərtərəfli Azad Ticarət Zonası Haqqında Sazişlər (DCFTA)** daxil olmaqla, Ukrayna, Gürcüstan və Moldovanın **Assosiasiya Sazişləri (AS-lər)** üzrə öhdəliklərini yerinə yetirmək səyləri də nəzərə alınır. 2014-cü ildə imzalanmış bu sazişlər Ukrayna, Gürcüstan və Moldovanı Aİ ilə yaxınlaşdırmaq, daha dərin siyasi əlaqələri, daha güclü iqtisadi əlaqələri və ümumi dəyərlərə hörməti təşviq etmək üçün hüquqi baza rolunu oynayır.

## Tövsiyələr

Komissiya Şuraya **Ukrayna**, **Moldova** və **Gürcüstana gələcəkdə** Avropa İttifaqına **üzv olmaq imkanının** verilməsini tövsiyə edir.

Komissiya **bir sıra tədbirlərin** görülməsi şərtilə **Ukrayna** və **Moldovaya namizəd statusunun** verilməsini tövsiyə edir. **Gürcüstan** üzvlük istiqamətində **bir sıra prioritet şərtlərə** cavab verməlidir.

İttifaqa qoşulma prosesi **müəyyən edilmiş meyar və şərtlərə** əsaslanır. Bu, prosesdə olan istənilən ölkəyə göstərdiyi səylərinə görə irəliləmək imkanı verir, lakin əsas şərtlər yerinə yetirilmədikdə Aİ-yə üzvlük istiqamətində görülən tədbirlərin dayandırılması mümkündür.

Komissiya **Ukrayna, Moldova və Gürcüstanın** bir sıra **şərtlərə** riayət etmək prosesindəki irəliləyişlərini izləyəcək. Komissiya genişlənməyə dair müntəzəm paketində bu barədə məlumat verəcək.

*Neighbourhood & Enlargement*

# 2022 Mühüm addımlar

**28 fevral** — **Ukrayna** Aİ-yə üzv olmaq üçün müraciət edib

**3 mart** — **Gürcüstan** və **Moldova** Aİ-yə üzv olmaq üçün müraciət edib

**7 mart** — Avropa İttifaqı Şurası Komissiyadan **Ukrayna**, **Gürcüstan** və **Moldovanın** müraciətləri ilə bağlı öz Rəylərini təqdim etməyi xahiş edib

**8 aprel** — **Ukraynaya** siyasi və iqtisadi meyarlar üzrə sorğu vərəqi təqdim olunub



**11 aprel** — **Gürcüstan** və **Moldovaya** siyasi və iqtisadi meyarlar üzrə sorğu vərəqi təqdim olunub

**13 aprel** — **Ukraynaya** Aİ qanunvericiliyinə dair sorğu vərəqi təqdim olunub

**17 aprel** — **Ukrayna** siyasi və iqtisadi meyarlarla bağlı cavablarını göndərib

**19 aprel** — **Gürcüstan** və **Moldovaya** Aİ qanunvericiliyinə dair sorğu vərəqi təqdim olunub

**22 aprel** — **Moldova** siyasi və iqtisadi meyarlarla bağlı cavablarını göndərib

**2 may** — **Gürcüstan** siyasi və iqtisadi meyarlarla bağlı cavablarını göndərib

**9 may** — **Ukrayna** Aİ qanunvericiliyi ilə bağlı cavablarını göndərib

**10 may** — **Gürcüstan** Aİ qanunvericiliyi ilə bağlı cavablarını göndərib

**12 may** — **Moldova** Aİ qanunvericiliyi ilə bağlı cavablarını göndərir

**17 iyun** — Avropa Komissiyası Aİ-yə üzvlük ilə bağlı müraciətlərə dair Rəylər qəbul edib

**24 iyun** — Avropa İttifaqı Şurası **Ukrayna**, **Moldova** və **Gürcüstana** gələcəkdə Avropa İttifaqına üzv olmaq imkanı verib. İttifaq həmçinin **Ukrayna** və **Moldovaya** namizəd statusu verib. **Gürcüstana** isə namizəd statusu bir sıra prioritetlər yerinə yetirildikdən sonra veriləcək.



## Növbəti mərhələ

Komissiya 2023-cü il üzrə Genişləməyə dair Paketində hər üç ölkənin irəliləyişləri barədə məlumat verəcək.

© Avropa İttifaqı, 2022
Müəllif və hər hansı dəyişikliklər göstərildiyi halda bu sənədin təkrar istifadəsinə icazə verilir (Creative Commons Attribution 4.0 Beynəlxalq Lisenziyası). Aİ-yə məxsus olmayan elementlərin hər hansı formada istifadəsi və ya təkrar istehsalı üçün birbaşa müvafiq müəllif hüquqları sahiblərindən icazə tələb edə bilər. Bütün şəkillər © Avropa İttifaqı, başqa cür qeyd edilmədiyi təqdirdə, Icons-© Flaticon.